**Təsdiq edilmişdir:**

**AGF-nin Ümumi Yığıncağının**

**16.02.2026-cı il tarixli Qərarı ilə**

**AGF-nin vitse-prezidenti Altay Həsənov**

# “AZƏRBAYCAN GİMNASTİKA FEDERASİYASI” İCTİMAİ BİRLİYİ

# GİMNASTİKADA TƏHLÜKƏSİZ MÜHİTİN TƏMİNATI VƏ İŞTİRAKÇILARIN ŞƏXSİYYƏTİNİN QORUNMASI (SEYFQARDİNQ) ÜZRƏ QAYDALARI

**AGF 2026**

**MADDƏ 1. ÜMUMİ MÜDDƏALAR**

Azərbaycan Gimnastika Federasiyası İctimai Birliyi (bundan sonra "AGF") insanlara ləyaqət və hörmətlə yanaşılan mühitin yaradılması və qorunub saxlanmasına təminat verir. Bu mühit qarşılıqlı etibara əsaslanır və təhdid, təzyiq və istismarın mövcud olmaması ilə xarakterizə olunur. AGF ayrıseçkilik və hər növ təqibi qadağan edir. Hər bir şəxs irqindən, etnik mənşəyindən, dilindən, dinindən və ya inancından, mədəniyyətindən, cinsiyyətindən, cinsi oriyentasiyasından, yaşından, fiziki və ya əqli imkanlarının məhdud olmasından, milli və yaxud sosial mənşəyindən, mülkiyyətindən, fiziki xüsusiyyətlərindən və atletik bacarığından və yaxud digər statusundan asılı olmayaraq təqib və təhqirdən azad gimnastika mühitində iştirak etmək hüququna malikdir.

AGF idmançıları, xüsusilə də 18 yaşına çatmayanları təqib və təhqirdən mühafizə etmək və qorumaq, bütün iştirakçılara ədalətlə və hörmətlə yanaşılmasını təmin etmək öhdəliyi daşıyır. AGF, uşaqların qorunmasının bu Qaydaların bir hissəsi olduğunu və Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları haqqında Konvensiyasında (1989) təsbit edilən uşaq hüquqlarının mühafizəsi və qorunmasını təmin etdiyini bəyan edir.

Bu Qaydalar Beynəlxalq Gimnastika Federasiyasının (bundan sonra "BGF") Gimnastikada Təhlükəsiz Mühitin Təminatı və İştirakçıların Şəxsiyyətinin Qorunmasına (bundan sonra – Seyfqardinq) dair müvafiq qaydalarına əsasən hazırlanmış və AGF Nizamnaməsinin 6.4.8.-ci Maddəsinə əsasən AGF-nin ümumi Yığıncağı tərəfindən qəbul olunmuşdur. Hazırkı Qaydalar AGF-nin Nizamnaməsi (bundan sonra Nizamnamə), İntizam Qaydaları, Etika Qaydaları, Davranış qaydaları, “Safeguarding” üzrə Plan, “Safeguarding” üzrə Araşdırma Prosedurları və “Safeguarding” üzrə Təlim Proseduru və digər müvafiq qaydalarla yanaşı tətbiq olunur.

**MADDƏ 2. MƏQSƏD**

Hazırkı Qaydaların əsas məqsədi idmançılar və gimnastikaya aidiyyatı olan digər şəxslərin təqib və ya təhqir qorxusu olmadan fəaliyyət göstərmələrini təmin etməkdən ibarətdir. Bu məqsədə nail olmaq üçün hər bir şəxs zorakılığın qarşısının alınması və müvafiq tədbirlərin görülməsi üzrə vəzifə və öhdəliklərini dərk etməlidir.

Hazırkı Qaydaların aşağıdakı məqsədləri vardır:

- Gimnastikaya aidiyyatı olan hər bir şəxsin zorakılığın bütün formalarının qəbuledilməz və qadağan olduğunu dərk etməsini təmin etmək;
- Gimnastikada təqib və ya təhqirin şahidi olmuş və ya bu cür hallardan zərər çəkmiş hər bir şəxsin təqib olunma və ya qisas qorxusu olmadan məlumat verməsinə imkan yaratmaq;
- Milli və yaxud beynəlxalq səviyyədə baş verməsindən asılı olmayaraq, gimnastikada iştirakla birbaşa və ya dolayısı ilə əlaqəli olan təqib və yaxud təhqir hallarına qarşı müvafiq tədbirlər görülməsini təmin etmək;
- Təqib və təhqir hallarının yayılmasının qarşısının alınması üçün effektiv tədbirlər görmək.

**MADDƏ 3. TƏTBİQ DAİRƏSİ**

AGF-nin fəaliyyətinə cəlb olunmuş bütün şəxslər (bundan sonra "iştirakçılar" adlandırılacaq) bu Qaydalara (bundan sonra "Qaydalar") tam riayət etməyə borcludurlar.

Bu Qaydalarda, “İştirakçı” dedikdə aşağıdakı şəxslər nəzərdə tutulur:

- Gimnastlar;
- Gimnastların ətrafında olan şəxslər (rəsmi şəxslər, hakimlər, məşqçilər, xoreoqraflar, tibbi heyət, idmançının səlahiyyətli nümayəndəsi və s.);
- Azərbaycan Respublikasının ərazisində qeydiyyatdan keçmiş İdman Klubları, İdman Təşkilatlarının gimnastika növləri üzrə bölmələri, onların nümayəndələri və işçi heyətləri;
- AGF-nin səlahiyyətli orqanları, seçilmiş və ya təyin olunmuş üzv və ya nümayəndələri;
- AGF-nin tərəfdaşları;
- Əmək və ya xidmət müqaviləsi ilə və yaxud könüllülük əsasında AGF-nin fəaliyyətinə cəlb olunmuş hər bir şəxs;
- AGF-nin rəsmi yarışları, tədbirləri və ya tanıdığı və ya iştirak etdiyi yarışlar və tədbirlər vaxtı Yerli Təşkilat Komitəsinin üzvləri, könüllülər, yarış və tədbirlərdə iştirak etmək üçün akkreditasiya və ya qeydiyyatdan keçmiş bütün şəxslər;
- Ümumi Yığıncaqda səsvermə hüquqlu nümayəndələr;
- AGF-də və ya üzv klublarda, təşkilatlarda seçkili vəzifələrə namizədlər;

- Akkreditasiyası olmayan, lakin tədbirlərdə və ya yarışlarda iştirak edən və yaxud yarışların, tədbirlərin hazırlıq mərhələsində iştirak edən şəxslər;
- Yazılı razılaşma əsasında AGF qaydalarına tabe olan istənilən hüquqi və fiziki şəxs.

Bu prosedur qaydaları gimnastika sahəsində fəaliyyət göstərən iştirakçılara qarşı edilən və AGF-yə ünvanlanan təqib və təhqirlə bağlı qayda pozuntuları, narazılıqlar və şikayətlərə tətbiq olunur.

Hazırkı Qaydalar, AGF-nin Texniki Reqlamentinə uyğun olaraq, AGF tərəfindən təşkil edilən və yaxud tanınan bütün milli tədbirlərdə iştirakdan yaranan təqib və təhqir hallarına tətbiq edilir. AGF-nin ev sahibliyi etdiyi BGF tədbirlərində Seyfqardinq BGF-nin müvafiq qaydalarına uyğun olaraq həyata keçirilir. İstisna hallarda, müəyyən beynəlxalq tədbir və ya yarışlarda hazırkı Qaydalar tam və ya qismən tətbiq oluna bilər.

## MADDƏ 4. QADAĞAN OLUNAN DAVRANIŞ

AGF, Beynəlxalq Olimpiya Komitəsinin Həmrəylik Bəyannaməsi (2018) və ayrıseçkiliyə və təqibə qarşı bütün qüvvədə olan qanun və qaydalara müvafiq olaraq, hazırkı Qaydaları aşağıdakı anlayışlara uyğun tətbiq edir:

### Psixoloji zorakılıq

- Təcridetmə, mənəvi təhqir, alçaltma, hədə-qorxu gəlmə, ələsalma və yaxud şəxsiyyət, ləyaqət və özünə-hörmət hissini azalda biləcək digər rəftar da daxil olmaqla istənilən arzuolunmaz hərəkət.

### Fiziki zorakılıq

- Vurma, döymə, təpikləmə, itələmə, əl qaldırma və bu kimi arzuolunmayan digər hərəkətlər. Bu cür hərəkətlərə məcburi və yaxud qeyri-adekvat fiziki fəaliyyət, məcburi spirtli içkinin və ya dopinqin qəbulu halları daxildir.

### Cinsi zorakılıq

- Şifahi, qeyri-şifahi və yaxud fiziki olmasından asılı olmayaraq, arzu olunmayan və istənilməyən hər hansı bir seksual xarakterli davranış. Cinsi zorakılıq cinsi istismar formasında da ola bilər.

### Cinsi istismar

- Razılığın zorla əldə edildiyi, alındığı və ya razılığın verilmədiyi və yaxud verilməsi mümkün olmayan hallarda təmas olmadan və ya təmas olmaqla istənilən seksual xarakterli davranış.

**Etinasızlıq**

- Məşqçinin və yaxud idmançıya qayğı göstərmək vəzifəsi daşıyan digər şəxsin tələb olunan minimal səviyyədə qayğını göstərməməsi və nəticədə xəsarət yarada biləcək, xəsarət yaranmasına yol açacaq və yaxud qaçılmaz xəsarət təhlükəsi yarada biləcək halın baş verməsi.

Təqib və təhqir çox vaxt vəzifə səlahiyyətlərindən sui-istifadə nəticəsində yaranır, belə ki, xidməti vəzifələrinin icrası ilə əlaqədar müəyyən etibara, təsirə və (güman edilən və yaxud faktiki) səlahiyyətə malik şəxslərin öz səlahiyyətlərindən üçüncü şəxslərə qarşı sui-istifadə etməsini bildirir. Təqib və təhqir irq və yaxud etnik mənşə, dil, din və ya inanc, mədəniyyət, cinsiyyət, cinsi oriyentasiya, yaş, fiziki və ya əqli imkanların məhdud olması, milli və yaxud sosial mənşə, mülkiyyət, fiziki xüsusiyyətlər və atletik bacarıq və yaxud digər statuslar daxil olmaqla müxtəlif səbəblərə əsaslana bilər.

Təqib və təhqirin edilməsi vasitələrinə və üsullarına aşağıdakılar daxildir:

- təmas, qeyri-təmas, şifahi təhqir və sosial şəbəkələr də daxil olmaqla elektron kommunikasiyalar vasitəsilə təhqir.

Təqib və təhqirə bir dəfə və ya dəfələrlə yol verilən hərəkətlər daxil ola bilər. O, şəxsən və yaxud onlayn vasitələrlə edilə bilər. Təqib qəsdən, arzu olunmayan və məcburi ola bilər.

Bəzi idmançılar da təqib və təhqir hallarına yol verə bilərlər. On səkkiz yaşına çatmamış gənclərdə həmyaşıdları tərəfindən təhqir dedikdə, idmançının digər idmançı və ya eyni yaşda olduğu bir qrup idmançı tərəfindən istismar edilməsi, ələ salınması və ya ona zərər verilməsi başa düşülür. Bu cür təhqir təmas, qeyri-təmas, şifahi və sosial şəbəkələr də daxil olmaqla elektron kommunikasiyalar vasitəsilə baş verə bilər. Bunlara aşağıdakılar daxildir:

**Bullinq**

- Adətən müəyyən dövr ərzində təkrar olunan və digər şəxsə və yaxud qrupa zərər verən qəsdən yol verilən davranış.

**Ağalıq etmək iddiası**

- Böyüklük etmək iddiası adətən idman komandaları da daxil olmaqla bir çox müxtəlif sosial qruplarda baş verən və yeni şəxsin müəyyən qrupa daxil olduğu və ya həmyaşıdları tərəfindən sosial baxımdan qəbul olunmaq istəməsi zamanı müşahidə olunan davranışdır.

Təqib və təhqirin ən çox aşağıda qeyd edilən "nalayiq hərəkət"in dərhal aradan qaldırılmadığı mühitdə baş verdiyi ehtimal olunur:

**Xoşagəlməz təcrübə**

- Həmişə dərhal zərərli olmayan, lakin tələb olunan standartlara və ya AGF-nin Etika Qaydaları və Davranış Qaydalarına uyğun gəlməyən və aradan qaldırılması lazım olan hərəkət və ya hərəkətsizlikdir. Bəzi nalayiq hərəkətlər, hətta zərər vurmaq niyyəti olmasa belə, şəxsin niyyəti barədə müəyyən şübhə yarada bilər.

**MADDƏ 5. AGF**

AGF, bütün iştirakçıların şəxsiyyətinin zorakılıqdan qorunması üçün aşağıdakı öhdəlikləri öz üzərinə götürür:

• Bu Qaydaları təşviq etmək və həyata keçirmək üçün effektiv rəhbərliyin təmin edilməsi və zorakılığa qarşı dözümsüzlüyün nümayiş etdirilməsi;

• Gimnastların və digər iştirakçıların Seyfqardinq ilə bağlı problemləri qiymətləndirmək və cavab tədbiri görmək üçün Seyfqardinq üzrə Menecerlərin təyin edilməsi. AGF biri qadın, digəri kişi olmaqla Seyfqardinq üzrə 2 Menecer təyin edir;

• Tutduğu vəzifədən və ya statusundan asılı olmayaraq, bütün iştirakçılar üçün məcburi olan davranış qaydaları və hədlərini müəyyən edən Etika Qaydalarının tətbiqi;

• Hazırkı Qaydalar, Etika Qaydaları və digər müvafiq qaydaların İştirakçıların diqqətinə çatdırılması və əməl edib və ya etməmələrinə nəzarət olunması və müvafiq reaksiyanın verilməsi;

• AGF-nin saytında anonim məlumatlandırma sisteminin təmin edilməsi;

• İştirakçılara zorakılıq əlamətlərini tanımaq, müəyyən etmək və onlara cavab vermək üçün müvafiq təlim keçirilməsinin təmin edilməsi;

• Bütün qanunsuz hesab olunan hadisə, davranış və hərəkətlərə qarşı müvafiq cavab tədbirlərinin görülməsi və belə hərəkətlər barədə məlumat verən şəxs də daxil olmaqla, pozuntu ilə üzləşən şəxs(lər)ə müvafiq dəstəyin göstərilməsi;

- Zərərçəkmişlər və bu haqda məlumat verən şəxslərin təhlükəsizliyinin təmin olunması üçün mexanizm və vasitələr, o cümlədən anonimlik və məxfilik təminatı;
- Qiymətləndirmə və araşdırma prosedurlarının daim təkmilləşdirilməsi;
- Seyfqardinq üzrə strukturun mütəmadi nəzərdən keçirilməsi və yenilənməsinin AGF Nizamnaməsinin 12.2-ci Maddəsinə müvafiq olaraq Hadisələrin İdarəolunması Qrupunun daimi komissiya kimi fəaliyyət göstərməsi;
- Bütün qanunsuz hərəkətlərin məxfi, ətraflı və dəqiq qeydlərinin aparılması və etibarlı şəkildə saxlanılması; yerlərdə mühafizə tədbirlərinin təmin edilməsi.
- Nizamnamənin 7.2-ci maddəsinə əsasən, İcra Komitəsinin üzvlərindən birinin gimnastikada təhlükəsiz mühitin təminatı və iştirakçıların Seyfqardinq məsələlərinə məsul şəxs qismində səlahiyyətləndirilməsinin təmin edilməsi.

## MADDƏ 6. ŞƏXSİYYƏTİN QORUNMASI ÜZRƏ MENECERLƏR

AGF-nin Seyfqardinq üzrə Menecerləri gimnastikada iştirakçıların mühafizəsi ilə bağlı biliyə, müvafiq qayda pozuntularının qiymətləndirilməsi və cavab tədbirlərinin görülməsi bacarığına malik olmalıdırlar. AGF-nin Seyfqardinq üzrə Menecerləri aşağıdakılara görə cavabdehlik daşıyır:

- Təqib və təhqirlə bağlı şikayət, narazılıq və məlumatların ədalətli, həssas, məsuliyyətli şəkildə və vaxtında qiymətləndirilməsini və araşdırılmasını təmin etmək;
- qayda pozuntularının necə həll edilməli olmasını müəyyən etmək;
- qayda pozuntuları ilə bağlı məlumatların Hadisələrin İdarəolunması Qrupuna ötürülməsini təmin etmək;
- zərərçəkmiş tərəflərə hansı dəstəyin göstərilməsini müəyyənləşdirmək.

Safeguarding menecer öz fəaliyyətində, xüsusilə safeguarding məsələləri üzrə aparılan araşdırmalarda müstəqildir və birbaşa Hadisələrin İdarəolunması Qrupunun üzvü qismində fəaliyyət göstərir. Menecer safeguarding məsələləri üzrə Baş Katibin və ya digər vəzifəli şəxslərin göstərişlərindən asılı deyildir. Safeguarding sahəsində verdiyi qərarlar peşəkar müstəqillik prinsipi əsasında və Hadisələrin İdarəolunması Qrupu ilə əlaqəli şəkildə qəbul edilir.

## MADDƏ 7. HADİSƏLƏRİN İDARƏOLUNMASI QRUPU

AGF-nin Nizamnaməsinin 12.2.1-ci Maddəsinə əsasən Hadisələrin İdarəolunması Qrupu AGF-nin Seyfqardinq sahəsinə aidiyyəti olan istənilən narahatlıq doğuran məsələlərin qiymətləndirilməsi üçün məsuliyyət daşıyır.

Qrupa Seyfqardinq üzrə direktor, Seyfqardinq üzrə menecer, hüquqşünas, həkim və sosial xidmətlər üzrə mütəxəssis daxildir.

Hadisələrin İdarəolunması Qrupunun fəaliyyəti AGF-nin Gimnastikada Təhlükəsiz Mühitin Təminatı və İştirakçıların Şəxsiyyətinin Qorunması (Seyfqardinq) üzrə Qaydaları, Etika qaydaları, Davranış Qaydaları, Gimnastikada Təhlükəsiz Mühitin Təminatı və İştirakçıların Şəxsiyyətinin Qorunması (Seyfqardinq) üzrə Plan, Gimnastikada Təhlükəsiz Mühitin Təminatı və İştirakçıların Şəxsiyyətinin Qorunması (Seyfqardinq) üzrə Araşdırma Prosedurları və digər əlaqədar sənədlərə əsasən həyata keçirilir.

Qrupun əsas vəzifələri aşağıdakılardan ibarətdir:

• Məşqçilər, idmançılar və digər müvafiq maraqlı tərəflər üçün təlim materiallarını hazırlamaq və təlim proqramlarını təşkil etmək;
• AGF-nin anonim məlumatvermə (whistleblowing) sisteminə nəzarəti həyata keçirmək;
• AGF-nin Seyfqardinq üzrə sənədləri və qaydaları vaxtaşırı nəzərdən keçirmək və zəruri hallarda dəyişikliklər olunmasını təklif etmək;
• AGF daxilində dürüstlük və Seyfqardinq məsələləri ilə bağlı həvalə edilmiş digər tapşırıqları yerinə yetirmək;
• Azərbaycan Respublikasının ərazisində gimnastikada təhlükəsizliyin təmin edilməsi məqsədilə Seyfqardinq ilə bağlı məsələlər üzrə qərarlar qəbul etmək və müvafiq tədbirlər və ya təlimatlar müəyyənləşdirmək;
• Müvəqqəti tədbirlərin görülməsi barədə qərar qəbul etmək və bu tədbirləri tətbiq etmək.

Qərar qəbuletmə prosesinin müstəqilliyini və qərəzsizliyini təmin etmək məqsədilə Hadisələrin İdarəolunması Qrupunun hər bir üzvü baxılan hər bir iş üzrə və icraatın bütün mərhələlərində mövcud, potensial və ya ehtimal edilən hər hansı maraqlar toqquşmasını dərhal açıqlamalıdır.Hər bir üzv müstəqillik və məxfilik haqqında bəyannamə imzalamalıdır.

Hadisələrin İdarəolunması qrupunun üzvləri öz vəzifələrinin icrası zamanı və ya qərarqəbuletmə prosesi çərçivəsində ifadə etdikləri fikirlərə, gördükləri tədbirlərə və qəbul etdikləri qərarlara görə məsuliyyətə cəlb edilə bilməzlər.

**MADDƏ 8. İDMAN KLUBLARI VƏ TƏŞKİLATLARI**

İdman klubları və idman təşkilatları aşağıdakıları etməlidir:

- İdman klubları, idman təşkilatları mühitində gimnastların və digər şəxslərin Seyfqardinq üçün cavabdeh olan məsul şəxs təyin etmək;
- IKC mühitində iştirakçıları zorakılıqdan, ələsalma və təqib kimi nalayiq davranış və hərəkətlərdən qorumaq üçün yerlərdə səmərəli tədbirlərin görülməsini təmin etmək;
- Bütün iştirakçıların, xüsusilə də risk qrupuna aid uşaqların və yetkinlərin hüquqlarının qorunmasını və rifahını təşviq etmək;
- Riskləri azaltmaq məqsədilə, mütəmadi olaraq bu Qaydalarda müəyyən edilən standartlara cavab verən risk qiymətləndirmələrini aparmaq və yerlərdə müvafiq qoruma tədbirlərini görmək;
- İşçi heyətinə müvafiq nəzarət və hüquqların qorunması üzrə təlim keçirilməsini və onların bu sahədə öz məsuliyyətlərini dərk etməsini təmin etmək;
- Hər hansı şübhəli hal və təhqirlə bağlı şikayət barədə AGF-nin Seyfqardinq üzrə Menecerlərinə məlumat verilməsini təmin etmək;
- Özü və ya başqası zorakılıqla üzləşdiyi zaman nə etməli olduğunu bilməsini təmin etmək və hər kəsi təqib olunmaq qorxusu olmadan istənilən pozuntu barədə məlumat verməyə sövq edən mühit yaratmaq;
- Risk qrupuna aid uşaqların və yetkinlərin hansı davranışların qəbuledilməz olduğunu və özlərini belə davranışlardan necə qorumalı olduqlarını bilməsini təmin etmək;
- Hər bir şəxsin təqib və təhqir barədə, eləcə də Seyfqardinq üzrə Menecerlərə ünvanlanan istənilən pozuntu haqqında hesabat vermə qaydalarından məlumatlı olmasını təmin etmək.

**MADDƏ 9. İŞTİRAKÇILAR**

Bütün İştirakçılar:

- Gimnastika fəaliyyətinə cəlb olunmuş hər bir şəxs zorakılığın ilkin əlamətləri barədə tam şəkildə məlumatlı olmalı və belə pozuntulara qarşı hansı cavab tədbirlərini görməli olduğunu dərk etməlidirlər;
- Bütün iştirakçılar hazırkı Qaydalara, AGF-nin Etika Qaydaları və Davranış Qaydalarına riayət etməli, zorakılıq hallarında iştirak etməməli, bu cür hallara yol verməməli, yaxud onlara etinasız yanaşmamalı və pozuntu barədə məlumat verən digər iştirakçılara dəstək göstərməlidirlər;
- Digər iştirakçının təqib və təhqirə məruz qaldığı və yaxud bu cür hallarla üzləşdiyini bilən və ya buna inanmaq üçün səbəbi olan istənilən iştirakçı bu barədə Seyfqardinq üzrə Menecerlərə məlumat verməyə borcludur.

## MADDƏ 10. SEYFQARDİNQ ÜZRƏ MENECERLƏR

Seyfqardinq üzrə Menecerlər AGF tədbirləri zamanı iştirakçıların Seyfqardinq ilə bağlı yaranan istənilən şikayət və ya narazılıqları qəbul etməyə və müvafiq cavab tədbirləri görməyə borcludur. Onlar, tədbir vaxtı tədbirin keçirildiyi məkanda olmalı, məşq və isinmə zalı, isinmə meydançası da daxil olmaqla, tədbirin bütün sahələrinə giriş əldə etməsi üçün müvafiq akkreditasiyaya malik olmalıdır. Seyfqardinq üzrə Menecerlərin adı və əlaqə məlumatları əlçatan olmalıdır. Seyfqardinq üzrə Menecerlər tədbir zamanı, iştirakçıların hüquqlarının qorunması üzrə öhdəlikləri ilə ziddiyyət təşkil edə bilən digər vəzifələri yerinə yetirməməlidirlər.

Seyfqardinq üzrə Menecerlər aşağıdakıları etməlidirlər:

- İştirakçıların yaşı, potensial həssaslığı və tədbirin xüsusiyyətlərini nəzərə alaraq, hansı mühafizə tədbirlərinin tələb olunduğunu müəyyən etmək məqsədilə mühafizə riskinin qiymətləndirilməsini aparmaq;
- Tədbir zamanı baş verən nalayiq davranış problemləri də daxil olmaqla, bütün qayda pozuntularını sənədləşdirmək, bütün şikayətlərin və görülən cavab tədbirlərinin aydın şəkildə qeydiyyatını aparmaq;
- Tədbir zamanı təqib və ya təhqir hadisəsi baş verərsə, zərərçəkmiş tərəflərə müvafiq dəstək göstərilməsinə yardım etmək;
- Məxfiliyi və sənədlərin təhlükəsizliyini qoruyub saxlamaq və qayda pozuntularına dair məlumatları üçüncü şəxslərlə paylaşmamaq;
- IKC-nin məsul şəxsinə nalayiq davranış haqda məlumatı və hansı tədbirlərin görülməsinə dair müəyyən göstəriş, məsləhətlər vermək;

- Yerli Təşkilat Komitəsi (bundan sonra "YTK") üzvlərinin tədbirin iştirakçılarının hüquqlarının qorunması barədə əsas məqamlardan məlumatlı olmalarını təmin etmək və qorunma tədbirləri ilə bağlı hər hansı problemi həll edən zaman YTK-ya dəstək göstərmək;
- Lazım olduqda, iştirakçı İKC-yə və digər iştirakçılara qorunma tədbirlərinə dair məlumatların tədbirdən əvvəl və ya tədbir zamanı paylanmasını təmin etmək;
- Təqsirkar şəxsin yaratdığı riskləri, eləcə də şəxsin tədbirdən kənarlaşdırılmasına və ya digər qabaqlayıcı tədbirlərin görülməsinə ehtiyac olub-olmadığını qiymətləndirmək.

## MADDƏ 11. YERLİ TƏŞKİLAT KOMİTƏSİ (YTK)

YTK üzvləri aşağıdakılara görə cavabdehlik daşıyırlar:

- Seyfqardinq tədbirləri ilə bağlı məlumatların tədbirdən əvvəl və tədbir zamanı İştirakçı İKC-yə və lazım gəldikdə, ayrı-ayrı iştirakçılara paylanmasını təmin etmək;
- Seyfqardinq tədbirləri və əgər varsa, Şəxsiyyətin Qorunması (Seyfqardinq) Planı üzrə öhdəliklərini yerinə yetirmək.

## MADDƏ 12. TƏDBİRDƏ ŞƏXSİYYƏTİN QORUNMASI TƏMİNATI ÜZRƏ PLAN

Bu Qaydalarla yanaşı, AGF-nin Seyfqardinq sahəsində aşağıdakı əlavə sənədlər də tətbiq olunur:

Şəxsiyyətin qorunması (Seyfqardinq) üzrə Fəaliyyət Planı – idmançıların və digər iştirakçıların rifahı ilə bağlı problemlərin və risklərin müəyyən edilməsi, təhlükəsiz mühitin yaradılması məqsədilə Seyfqardinq üzrə siyasətin və prosedurların, qabaqlayıcı tədbirlərin, təlim-tədris, monitorinq fəaliyyətinin və yeniliklərin həyata keçirilməsi mexanizmlərini müəyyən edən sənəddir. Plan risklərin dəyərləndirilməsini, davranış qaydalarını, hesabatlılıq prosedurlarını, cavab tədbirlərini, təhlükəsiz işə qəbul təcrübəsini, monitorinq və dəyişikliklər üzrə məqsədləri əhatə edir.

Şəxsiyyətin qorunması (Seyfqardinq) üzrə Araşdırma Qaydaları – təqib və qəddar rəftar (ümumilikdə zorakılıq) insidentlərinin müəyyən edilməsi, zəruri qoruyucu tədbirlərin həyata keçirilməsi, müvafiq məlumatların əldə edilməsi, hadisələrin araşdırılması və bənzər pozuntuların qarşısının alınması üzrə əsas prosesi ətraflı təsvir edən sənəddir. Bu sənəd hər kəsin təqib və qəddar rəftar qorxusu olmadan idman fəaliyyəti ilə məşğul olmasını təmin etmək məqsədilə zorakılığın əlamətlərinin

müəyyən edilməsi, məlumatlandırma sistemi və sənədlərin qeydiyyata alınması prosedurlarını əhatə edir.

Şəxsiyyətin qorunması (Seyfqardinq) üzrə Təlim Qaydaları – AGF-nin bütün işçiləri, idmançılar (xüsusilə uşaqlar və həssas olan yetkin şəxslər), eləcə də gimnastika fəaliyyətinə cəlb olunan hər kəs üçün təhlükəsiz mühit yaratmağa imkan verən zəruri biliklərə yiyələnməsi məqsədilə hazırlanmış sənəddir. Təlim proqramı başlanğıc təlimi, baza təlim, ixtisaslaşmış hazırlıq və ixtisasartırma kurslarından ibarət olub, iştirakçıların müxtəlif qrupları üçün nəzərdə tutulmuşdur.

Seyfqardinq üzrə Menecerlər, lazım olduğu halda, müvafiq tədbirdə Şəxsiyyətin Qorunması (Seyfqardinq) Planını hazırlamaq qərarı verə bilər. Bu Planın əsas məqsədi tədbirdə şəxsiyyətin qorunmasının effektivliyini artırmaq və zorakılıq hallarının baş vermə ehtimalını azaltmaqdan ibarətdir.

Tədbirin seyfqardinq planında aşağıdakılar qeyd olunmalıdır:

- Fiziki və əqli imkanları məhdud olma kimi əlavə həssaslığı olan iştirakçıların ehtiyaclarını qarşılamaq üçün tədbirlər;
- İşçi heyətinin, könüllülərin və digər iştirakçıların Seyfqardinqə dair öz öhdəliklərini anlamaları və hər hansı şikayət və ya qayda pozuntusu olduğu halda, hansı cavab tədbirlərini görməli olduqlarını bilmələri üçün təlimlərin təşkili;
- Etika Qaydalarına uyğun olaraq işçi heyəti, könüllülər və digər iştirakçılar üçün nəzərdə tutulan davranış standartları;
- Seyfqardinq üzrə Menecerlərin əlaqə nömrələri.

## MADDƏ 13. İDMAN KLUBLARI VƏ TƏŞKİLATLARI

İdman klubları və idman təşkilatları öz idmançılarının şəxsiyyətinin qorunmasını təmin etmək üçün məsuliyyət daşıyır və öz nümayəndə heyətinin bütün üzvlərinin qorunması üçün tədbirlər görməlidirlər. Hər bir Klub, AGF-yə öz nümayəndə heyətinin məsul şəxsinin (bundan sonra "məsul şəxs" adlandırılacaq) adını təqdim etməli və bütün İKC iştirakçılarının öz mühafizə öhdəliklərini və nəzərdə tutulan davranış standartlarını anlamalarını təmin etməlidir.

Məsul şəxs öz nümayəndə heyəti üzvlərinin rifahını qorumalıdır. O, İdman klubları və idman təşkilatlarının nümayəndə heyətinin üzvünə qarşı və ya onun tərəfindən mühafizə ilə bağlı hər hansı şikayət olduğu halda, Seyfqardinq üzrə Menecerlər üçün

əlaqələndirici şəxs qismində çıxış edir. Mühafizə ilə bağlı qayda pozuntusu yarandıqda, məsul şəxs belə pozuntuların müvafiq qaydada həll edilməsini təmin etmək üçün Seyfqardinq üzrə Menecerlər ilə birgə çalışmalıdır.

İdman klubları və idman təşkilatları məsul şəxsin Seyfqardinq tədbirləri ilə bağlı müvafiq biliyə və qayda pozuntularının qiymətləndirilməsi və cavab tədbirlərinin görülməsi bacarığına malik olmasını təmin etməlidirlər. Bütün nümayəndə heyəti üzvləri bu Qaydalar və tədbir zamanı görülməli olan konkret mühafizə tədbirləri barədə məlumatlı olmalıdırlar. İdman klubları və idman təşkilatları nümayəndə heyəti üzvlərinin AGF-nin Etika Qaydalarına uyğun davranmalarını təmin etməlidirlər.

**MADDƏ 14. MƏLUMATLANDIRMA QAYDASI**

Hər bir şəxs təqibdən və təhqirdən azad idman mühitinin yaradılmasında iştirak etməlidir. AGF, təqsirkarın tutduğu vəzifəsindən və ya statusundan asılı olmayaraq, təqib və təhqirlə bağlı bütün qayda pozuntuları barədə məlumat verilməsinə təşviq edir.

Bütün qayda pozuntuları, narazılıqlar, iddialar barədə Seyfqardinq üzrə Menecerlərə məlumat verilməlidir. AGF-yə ünvanlanan, lakin birbaşa Seyfqardinq üzrə Menecerlərə təqdim olunmayan istənilən şikayət və narazılıqlar araşdırılması üçün son olaraq Seyfqardinq üzrə Menecerlərə göndərilir.

Müvafiq gimnastika növü üzrə Menecerlər də bütün təqib, təhqir kimi pozuntuların qarşısını almaq və şikayətin edilib-edilmədiyindən asılı olmayaraq, bu cür hallar aşkar edildiyi halda, dərhal tədbir görmək öhdəliyi daşıyırlar.

Hər bir şəxs təqib və yaxud təhqir barədə aşağıdakı qaydada məlumat verə bilər:

- Yazılı surətdə;
- AGF-yə telefon və yaxud e-poçt vasitəsilə;
- Şəxsən Seyfqardinq üzrə Menecerlə əlaqə saxlamaqla;
- AGF-nin saytında anonim məlumatlandırma sistemindən istifadə etməklə.

Şikayət üçüncü şəxs tərəfindən də yazılı və ya şifahi təqdim edilə bilər.

Bəzi şəxslər xüsusilə də təqsirkarın səlahiyyət sahibi olduğu hallarda, bu Qaydalarda qeyd olunan prosedurlara uyğun olaraq, şikayət etməkdən qorxa və ya çəkinə bilərlər. Belə hallarda, mümkün olduqca, xəbər verən şəxsin kimliyi məxfi saxlanılmalıdır.

Vicdanlı şəkildə şikayət edən istənilən şəxs, məlumat verdiyinə görə təqib olunmamalı və ya digər mənfi nəticələrə məruz qalmamalıdır. Bu qaydalar qəsdən yalan məlumat verən və narahatlıq yaradan, qisas məqsədi güdən və yaxud qeyri-ciddi şikayət təqdim edən şəxslərə tətbiq olunmur.

**MADDƏ 15. QİYMƏTLƏNDİRMƏ PROSESİ**

Seyfqardinq üzrə Menecerlər ilk növbədə pozuntunun xarakterini və şikayətin AGF-nin səlahiyyət dairəsində olan şəxsə aid olub-olmadığını müəyyən etmək üçün şikayətin ilkin qiymətləndirilməsini aparırlar və nəticələri Hadisələrin İdarəolunması Qrupuna təqdim edirlər.

- Təqib və təhqirlə bağlı şikayət sübuta yetirilərsə, müvafiq intizam tədbirlərini tətbiq etmək üçün materialı AGF-nin Hadisələrin İdarəolunması Qrupunun rəyi ilə AGF-nin İntizam Komissiyasına (bundan sonra "Intizam Komissiyası") təqdim etmək;
- qayda pozuntuları ilə bağlı məlumatlar ağırlıq dərəcəsindən asılı olaraq və hüquqşünasların rəyi nəzərə alınaraq hüquqi qiymətin verilməsi məqsədilə, aidiyyəti sənədlərin AGF tərəfindən müvafiq hüquq mühafizə orqanlarına göndərilməsi məsələsinə baxıla bilər.

Belə halda, Seyfqardinq üzrə Menecerlər pozuntu barədə hər hansı məlumatı paylaşmamalıdırlar.

Şikayət hüquq mühafizə orqanlarına aid olmadığı halda, Hadisələrin İdarəolunması Qrupu aşağıdakı qərarlardan birini qəbul edir:

- Daxili araşdırmaya başlamaq;
- Məsələni qeyri-rəsmi şəkildə həll etmək;

Hadisələrin İdarəolunması Qrupunun qərarı ilə

- Şikayəti digər aidiyyatı təşkilata ünvanlamaq;
- Əsassız olduğundan və yaxud kifayət qədər ciddi olmadığından şikayəti rədd etmək;
- Şəxsin tutduğu vəzifədən müvəqqəti kənarlaşdırılması barədə qərar vermək.

Seyfqardinq üzrə Menecerlər zərərçəkmiş tərəflərin dəstəyə ehtiyacı olub-olmadığını qiymətləndirir və lazımi dəstəyin göstərilməsi üçün müvafiq tədbirlər görür.

**MADDƏ 16. ARAŞDIRMA QAYDASI**

Əksər hallarda, AGF cinayət araşdırmasının (əgər varsa) nəticəsi məlum olana qədər daxili araşdırmaları təxirə salır. Lazımi hallarda, məsələ hüquq mühafizə orqanlarından geri qaytarıldıqdan sonra, ağlabatan müddət ərzində (ən yaxşı halda 2 ay müddətində) əlavə araşdırma aparılır.

Müvafiq hallarda, Seyfqardinq üzrə Menecerlər Hadisələrin İdarəolunması Qrupunun qərarı ilə hüquq mühafizə orqanlarından və digər aidiyyəti təşkilatlardan məlumat tələb edə və tərəflərdən yazılı və yaxud şifahi izahat ala bilərlər. Dindirilən şahidlər həssas qrupa (uşaqlar, əqli imkanları məhdud şəxslər və.s) aid olduğu halda, Seyfqardinq üzrə Menecerlər onlardan xüsusi diqqət göstərməklə izahat almalıdırlar. Müvafiq məlumatların verilməsindən imtina olunması özlüyündə pozuntu hesab edilə bilər.

Seyfqardinq üzrə Menecerlər bütün müvafiq sübutları əks etdirən hesabat hazırlayır və hesabatı Hadisələrin İdarəolunması Qrupuna təqdim edir. Qrup hesabatı qiymətləndirdikdən sonra aşağıdakı təkliflərdən birini verə bilər:

- Məsələni baxılması üçün AGF-nin İntizam Komissiyasına təqdim etmək;
- Əlavə araşdırmalara başlamaq;
- Aidiyyəti tərəflərə göstəriş, məsləhət və yaxud tövsiyə vermək; və ya
- Əlavə tədbir görməmək.
- Pozuntunun az əhəmiyyətli olduğu və işin İntizam Komissiyasına çıxarılmasına ehtiyac olmadığı qənaətinə gəlindikdə, Hadisələrin İdarəolunması Qrupu öz rəyi əsasında aşağıdakı tədbirlərdən birinin və ya bir neçəsinin görülməsini müəyyən edə bilər:
- yazılı və ya şifahi üzr istəmənin təmin edilməsi;
- təlim və ya nəzarət tədbirinin tətbiqi;
- AGF-nin İntizam Qaydalarının 9-1-ci maddəsinin "k" bəndinə uyğun olaraq, İntizam Komissiyasına çıxarılmayan məsələ üzrə yazılı və ya şifahi xəbərdarlığın verilməsi üçün məsələnin Baş katibə yönləndirilməsi.

## MADDƏ 17. SANKSİYALAR VƏ İNTİZAM TƏDBİRLƏRİ

Seyfqardinq üzrə Menecerlər pozuntunun ciddi xarakterli olduğu qənaətinə gələrsə, şikayəti Hadisələrin İdarəolunması Qrupuna təqdim edir. Hadisələrin İdarəolunması Qrupu təqsirli şəxsə müvafiq qanunvericiliyin tələblərinə uyğun olaraq müvəqqəti tədbir tətbiq edə və ya əlavə araşdırma aparılması üçün işi İntizam Komissiyasına ötürə bilər. İntizam icraatı AGF-nin İntizam Qaydalarına uyğun olaraq tətbiq edilir. Nizamnamənin

9.10-cu maddəsinə əsasən, İntizam Komissiyası Seyfqardinqə aid ilkin qoruyucu tədbirlərin görülməsində Apellyasiya Komissiyası qismində çıxış edir və Hadisələrin İdarəolunması Qrupunun təqdim etdiyi işlər üzrə qərar qəbul edir. Lazım olduqda, İntizam Komissiyası araşdırmalar zamanı və ya hər hansı tələb olunan qabaqlayıcı tədbirlərin tətbiq olunması üçün Seyfqardinq üzrə Menecerdən və Hadisələrin İdarəolunması Qrupundan əməkdaşlıq tələb edə bilər.

Nizamnamənin 12.2.4.6-cı maddəsinə əsasən, Hadisələrin İdarəolunması Qrupu müvəqqəti tədbirlərin görülməsi barədə qərar qəbul edir və bu tədbirləri tətbiq edir.

**MADDƏ 18. İDDİA MÜDDƏTİNİN BİTMƏSİ**

İddia müddətləri AGF-nin İntizam Qaydalarına (Maddə 7) əsasən müəyyən olunub.

Müddəti keçmiş halla bağlı iddia irəli sürülərsə, Hadisələrin İdarəolunması Qrupu aşağıdakıları etməlidir:

- İştirakçılar üçün hazırda riskin mövcud olub-olmadığını aydınlaşdırmaq və təxirə salmadan ilkin tədbirləri görmək;
- Şəxsə müvafiq hüquq-mühafizə orqanına rəsmi şəkildə şikayət vermək hüququnu izah etmək;
- AGF tərəfindən lazım hesab edilərsə, digər əlavə dəstək və yardım göstərmək.

**MADDƏ 19. MƏXFİLİK**

AGF, təqib və təhqirin həssas və ciddi məsələ olduğunu qəbul edir və şikayətlə bağlı bütün məsələlərin məxfi saxlanılması üçün səy göstərir.

Müraciətçi tərəfindən təqdim olunmuş bütün məlumatlar AGF tərəfindən araşdırılır və yalnız zərurət olduğu halda, İntizam Komissiyasının üzvlərinə, hüquq mühafizə orqanlarına açıqlana bilər.

AGF daxil olmuş müraciətin araşdırılması zamanı məxfilik rejimini qorumaqla, müraciət edən şəxslə (məlumat anonim təqdim edilməsindən asılı olmayaraq, əlaqə vasitələri qeyd olunmuşdursa), müvafiq klub və ya idman təşkilatı ilə, habelə zəruri məlumatlara malik olan digər aidiyyatı şəxslər və müvafiq dövlət qurumları ilə əməkdaşlıq edə bilər.

Fərdi məlumatların qorunması Azərbaycan Respublikasının qanunvericiliyinə, xüsusilə də “Fərdi məlumatlar haqqında” Qanuna əsasən həyata keçirilir.

Məlumatın ictimaiyyətə artıq bəlli olduğu hallar istisna olmaqla, bu cür məlumata aidiyyatı olan istənilən şəxs, onun məxfi saxlanılmasını təmin etməlidir.

**MADDƏ 20. SƏNƏDLƏRİN SAXLANILMASI**

Zorakılıqla bağlı istənilən şikayətlərə aid sənədlər, iştirakçı idmanda fəaliyyət göstərdiyi müddətədək və yaxud 10 il müddətinə (hansının daha uzun müddət olmasından asılı olaraq) saxlanılır.

**MADDƏ 21. QAYDALARIN HƏYATA KEÇİRİLMƏSİ**

Bu Qaydalar bütün aidiyyəti şəxslərin tanış olması üçün AGF-nin rəsmi saytında yerləşdirilir. Bütün iştirakçılar hazırkı Qaydaların məzmunu üzrə təlim keçməlidirlər. AGF hər il bütün aidiyyəti iştirakçılardan hazırkı Qaydaların məzmunu üzrə təkmilləşdirmə kursunda iştirak etməyi tələb edir.

Hazırkı sənəd 2026-cı ilin 16 fevral tarixindən qüvvəyə minir. Hazırkı Qaydalara əlavə və dəyişikliklər yalnız AGF-nin Ümumi Yığıncağının qərarı əsasında oluna bilər.